# Dəniz qəzalarının və dəniz hadisələrinin (insidentlərinin) araşdırılması haqqında məcəllə

## Müqəddimə

1 Bu Məcəllə 1997-ci ilin noyabr ayında Beynəlxalq Dənizçilik Təşkilatı tərəfindən A.849(20) saylı qətnamə ilə qəbul edilmiş Dəniz qəzalarının və dəniz hadisələrinin (insidentlərinin) araşdırılması haqqında məcəllənin müəyyən etdiyi dəniz qəzasının və dəniz hadisəsinin (insidentinin) araşdırılması zamanı ən mütərəqqi təcrübələri özündə birləşdirir və onlara söykənir. Dəniz qəzalarının və dəniz hadisələrinin (insidentlərinin) araşdırılması haqqında məcəllənin məqsədi dövlətlər arasında dəniz qəzası və dəniz hadisəsi (insidenti) araşdırmaları üzrə əməkdaşlığın və ümumi yanaşmanın təşviq etdirilməsini təmin edir.

## Tarixçəsi

2 Təşkilat bir sıra qətnamələr vasitəsilə qarşılıqlı maraqlara dair əməkdaşlığı və rəsmi tanınmanı təşviq etdirib. Birinci qətnamə A.173(ES.IV) – (Dəniz qəzalarına dair rəsmi sorğularda iştirak) 1968-ci ilin noyabr ayında qəbul edilib. Digər növbəti qətnamələrə daxildir: A.322(IX) saylı qətnamə (Qəzaların araşdırılmasının aparılması) – 1975-ci ilin noyabr ayında qəbul edilib; A.440(XI) saylı qətnamə (Dəniz qəzalarının araşdırılması üçün məlumat mübadiləsi) və A.442(XI) saylı qətnamə (Qəzaların və Konvensiyaların pozulması hallarının araşdırılması üçün Administrasiyaların maddi resurs ehtiyacları), onların hər ikisi 1979-cu ilin noyabr ayında qəbul edilmişdir; A.637(16) saylı qətnamə (Dəniz qəzalarının araşdırılması zamanı əməkdaşlıq) -1989-cu ildə qəbul edilmişdir.

3 Bu ayrıca qətnamələr birləşdirilmiş və təşkilat tərəfindən Dəniz qəzalarının və dəniz hadisələrinin (insidentlərinin) araşdırılması haqqında məcəllənin qəbulu məqsədilə genişləndirilmişdir. A.884(21) saylı qətnamə. (Dəniz qəzalarının və dəniz hadisələrinin (insidentlərinin) araşdırılması haqqında məcəlləyə dəyişikliklər - A.849(20) saylı qətnamə), 1999-cu ilin noyabrında qəbul edilmiş və insan amillərinin araşdırılmasına dair rəhbər qaydaları təmin etməklə Məcəllə tərəfindən təkmilləşdirilmişdir.

4 Dənizdə insan həyatının mühafizəsinə dair 1948-ci il Beynəlxalq Konvensiyaya (SOLAS) bayraq dövləti Administrasiyalarından dənizdə hər hansı gəmidə baş vermiş qəzanın araşdırılmasını (əgər araşdırma qanunvericilik məsələlərinin yardımçı amil kimi müəyyən edilməsinə kömək edərsə) həyata keçirmək üçün bayraq dövlətinin Administrasiyaları qarşısına tələb qoyan bir müddəa əlavə edildi. Bu müddəa 1960 və 1974 SOLAS Konvensiyalarında saxlanıldı. O, həmçinin Yük markası haqqında 1966-cı il tarixli Beynəlxalq Konvensiyaya da daxil edildi. Bundan

başqa, bayraq dövlətlərindən açıq dənizdə* baş verən müəyyən dəniz qəzalarına və dəniz hadisələrinə (insidentlərinə) dair sorğunun başladılması da tələb olunmağa başlandı.

5 Suveren sahilyanı dövlət daxili sulardan ərazi sularınadək hüdudlarını genişləndirir**. Bu yurisdiksiya sahilyanı dövlətə öz ərazisi ilə əlaqədar olan dəniz qəzalarını və dəniz hadisələrini (insidentlərini) araşdırmaq hüququnu verir. Əksər milli Administrasiyalar daxili sularda və ərazi sularında bayrağından asılı olmayaraq bütün gəmilərdə baş verən qəzaların araşdırılmasını təmin edən qanunvericilik müddəalarına malikdir.

* Birləşmiş Millətlər Təşkilatının dəniz hüququ haqqında konvensiyasının (UNCLOS) 94(7)-ci maddəsinə, yaxud beynəlxalq qanunların və gömrük qanunlarının tələblərinə istinad edilir.

** Birləşmiş Millətlər Təşkilatının dəniz hüququ haqqında konvensiyasının (UNCLOS) 2-ci maddəsinə, yaxud beynəlxalq qanunların və gömrük qanunlarının tələblərinə istinad edilir.

Dənizçilərlə davranış

6 Son zamanlarda Beynəlxalq Əmək Təşkilatının Dənizdə əməyə dair konvensiyası (2006, hələ qüvvəyə minməyib) bəzi ciddi dəniz qəzalarının araşdırılması üçün, eləcə də dənizçilər üçün əmək şəraitləri barədə müddəanı nəzərdə tutmuşdur. Araşdırma zamanı dənizçilərin xüsusi mühafizə ehtiyacını nəzərə alaraq, təşkilat 2005-ci ilin dekabr ayında A.987(24) saylı qətnaməsi ilə “Dəniz qəzası baş verdiyi zaman dənizçilərlə ədalətli davranış haqqında rəhbər qaydaları” qəbul etmişdir. Bu rəhbər qaydalar BDT və BƏT tərəfindən 1 iyul, 2006-cı ildə nəşr edilmişdir.

## Məcəllənin qəbul edilməsi

7 Birinci SOLAS Konvensiyasının qəbulundan sonra beynəlxalq dənizçilik sənayesinin strukturunda və beynəlxalq qanunvericilikdə irimiqyaslı dəyişikliklər baş vermişdir. Bu dəyişikliklər dəniz qəzası, yaxud dəniz hadisəsi (insidenti) baş verdiyi təqdirdə dəniz təhlükəsizliyi üzrə araşdırmaların gedişində və nəticələrində marağı olan dövlətlərin sayını potensial şəkildə artırmış və zərər görmüş dövlətlər arasında məhkəmə və digər prosessual fərqlər üçün potensialı artırmışdır.

8 Bəzi məcburi tələbləri müəyyən edən bu məcəllə dəniz qəzaları və dəniz hadisələrinin (insidentlərinin) araşdırılması ilə əlaqədar beynəlxalq və yerli qanunlarda olan fərqləri təsdiq edir. Bayraq dövlətlərinin, sahilyanı dövlətlərin, təşkilatın və ümumiyyətlər, gəmiçilik sənayesinin faydası üçün dəniz təhlükəsizliyi üzrə obyektiv araşdırmaların həyata keçirilməsini asanlaşdırmaq üçün nəzərdə tutulur.

# I HİSSƏ

# ÜMUMİ MÜDDƏALAR

## 1-ci fəsil

## MƏQSƏD

1.1 Bu məcəllənin məqsədi dəniz qəzaları və dəniz hadisələri (insidentləri) zamanı dəniz təhlükəsizliyi üzrə araşdırmalarının icrasını qəbul etmək üçün dövlətlərdən ümumi yanaşmanı təmin etməkdən ibarətdir. Dəniz təhlükəsizliyi üzrə araşdırmalar təqsirləndirilən şəxsi axtarmır və ya öhdəliyi müəyyən etmir. Bunun əvəzinə, bu məcəllədə müəyyən edildiyi kimi, dəniz təhlükəsizliyi üzrə araşdırma gələcəkdə dəniz qəzalarının və dəniz hadisələrinin (insidentləri) qarşısını almaq üçün aparılan bir araşdırmadır. Bu Məcəllədə bu məqsədin Dövlətlərin hesabına nail olunacağı nəzərdə tutulur:

.1 Zəruri olduğu yerdə səbəbiyyət amillərinin və digər təhlükəsizlik risklərinin ortaya çıxarılması üçün genişmiqyaslı araşdırmanın aparılmasına imkan yaratmaq və stimul vermək məqsədilə uyğun metodologiyanın tətbiqi; və

.2 Təhlükəsizlik məsələlərinin həlli üçün beynəlxalq dəniz sənayesinə kömək etmək məqsədilə məlumatların geniş şəkildə yayılmasına imkan yaratmaq məqsədilə Təşkilata hesabatların verilməsi.

1.2 Dəniz təhlükəsizliyi üzrə araşdırma hər hansı digər araşdırma formasından ayrıca və müstəqil formada olmalıdır. Halbuki, bu məcəllənin məqsədi hər hansı digər araşdırma formasını, o cümlədən, mülki, cinayət və inzibati icraatı kənarlaşdırmaq deyil. Bundan başqa, bu məcəllənin niyyəti dəniz təhlükəsizliyi üzrə araşdırmanı aparan hər hansı dövləti, yaxud dövlətləri dəniz qəzasına, yaxud dəniz hadisəsinə (insidentinə) dair əldə edilən faktların təqsirləndirmə ilə və ya məsuliyyətə cəlb olunma ilə nəticələnə biləcək səbəbiyyət amilləri haqqında tam şəkildə hesabat verməkdən çəkinməməlidir.

1.3 Bu Məcəllə təsdiq edir ki, əgər hər bir bayraq dövləti gəmilərinin hər hansı birində apardığı araşdırmanın bu qaydalara arzu edilən dəyişiklikləri müəyyən etməyə kömək edəcəyi və, yaxud qeyd olunan qəzanın ətraf mühitdə böyük zərərli təsir yaratdığı qənaətinə gələrsə, sözügedən dövlətin vəzifəsi qeyd olunan araşdırmaları Təşkilatın sənədləri əsasında araşdırmaqdan ibarətdir. Bu məcəllədə həmçinin dəniz üzgüçülüyü zamanı baş verən müəyyən dəniz qəzalarının, yaxud dəniz hadisələrinin (insidentlərin) bayraq dövlətinin* müvafiq ixtisaslı şəxsi, yaxud şəxsləri tərəfindən, yaxud onların qarşısında sorğusunun başladılması da nəzərdə tutulur. Halbuki, bu məcəllə həmçinin etiraf edir ki, əgər bir dövlətin ərazisində, o cümlədən, ərazi sularında insan həyatına, yaxud ətraf mühitə təhlükə törədə biləcək, sahilyanı dövlətin axtarış və xilasetmə qurumlarını cəlb edə biləcək, yaxud, əks halda, onlara təsir göstərə biləcək hər hansı dəniz qəzası, yaxud dəniz hadisəsi (insidenti) baş verərsə, həmin dövlət qeyd olunan dəniz qəzasının, yaxud dəniz hadisəsinin (insidentinin) səbəbini araşdırmaq hüququna** malikdir.

* Birləşmiş Millətlər Təşkilatının dəniz hüququ haqqında konvensiyasının (UNCLOS) 94-cü maddəsinə, yaxud beynəlxalq qanunların və gömrük qanunlarının tələblərinə istinad edilir.

** Birləşmiş Millətlər Təşkilatının dəniz hüququ haqqında konvensiyasının (UNCLOS) 2-ci maddəsinə, yaxud beynəlxalq qanunların və gömrük qanunlarının tələblərinə istinad edilir.

## 2-ci fəsil

## ANLAYIŞLAR

Dəniz təhlükəsizliyi üzrə araşdırmalar üçün aşağıdakı məcburi standartlardan və tövsiyələrdən istifadə edilərsə, onlar aşağıdakı mənaları ifadə edir.

2.1 Agent dedikdə, gəminin mülkiyyətçilərinin, fraxtedənin, yaxud operatoru adından dəniz təhlükəsizliyi üzrə araşdırmaya cəlb edilən gəmi üçün gəmiçilik xidmətlərinin göstərilməsi ilə, o cümlədən, təşkilatçılıq işlərinin idarə olunması ilə məşğul olan hər hansı fiziki, yaxud hüquqi şəxs nəzərdə tutulur.

2.2 A səbəbiyyət amili dedikdə, elə hərəkətlər, hərəkətsizliklər (səhlənkarlıqlar), hadisələr, yaxud şəraitlər nəzərdə tutulur ki, onlar olmada:

.1 dəniz qəzası, yaxud dəniz hadisəsi (insidenti) baş verməmiş olardı; yaxud

.2 dəniz qəzası, yaxud dəniz hadisəsi (insidenti) ilə əlaqədar mənfi nəticələr ola bilsin ki, baş verməmiş olardı, yaxud bu qədər ciddi olmazdı;

.3 .1, yaxud .2-ci yarım-bənddə göstərilənlərin nəticəsi olaraq digər hərəkət, hərəkətsizlik (səhlənkarlıq), hadisə, yaxud şərait ola bilsin ki, baş verməmiş olardı.

2.3 Sahilyanı dövlət dedikdə, ərazisində, yaxud ərazi sularında dəniz hadisəsinin (insidentin) baş verdiyi dövlət nəzərdə tutulur.

2.4 Müstəsna iqtisadi zona dedikdə, Birləşmiş Millətlər Təşkilatının dəniz hüququ haqqında konvensiyasının 55-ci maddəsində müəyyən edilmiş müstəsna iqtisadi zona nəzərdə tutulur.

2.5 Bayraq dövləti dedikdə, gəminin, altında üzmək hüququ olan dövlətin bayrağı nəzərdə tutulur.

2.6 Açıq dəniz dedikdə, Birləşmiş Millətlər Təşkilatının dəniz hüququ haqqında konvensiyasının 86-cı maddəsində müəyyən edilmiş açıq dəniz nəzərdə tutulur.

2.7 Maraqlı tərəf dedikdə, dəniz təhlükəsizliyi üzrə araşdırmanın nəticələri ilə əlaqədar olaraq əhəmiyyətli maraqları, hüquqları, yaxud legitim gözləntiləri olan, dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) tərəfindən müəyyən edilmiş ayrıca şəxs nəzərdə tutulur.

2.8 Əmniyyətli idarəetmə haqqında (İSM) Məcəlləsi" dedikdə, A.741(18) qətnamə ilə, Təşkilat tərəfindən qəbul edilmiş Gəminin əmniyyətli idarə olunmasına və çirklənmənin qarşısının alınmasına dair beynəlxalq məcəlləsi nəzərdə tutulur. Gəminin istismarı ilə bilavasitə əlaqədar olaraq baş vermiş və aşağıda göstərilənlərə səbəb olmuş hadisələr dənizdə gəmilərdə baş vermiş qəza hesab edilir:

.1 insan ölümünə və ya insan bədəninə ağır xəsarət yetirilməsi;

.2 insanın gəmidən itkin düşməsi;

.3 itki, ehtimal edilən itki, yaxud gəminin tərk edilməsi;

.4 gəmiyə maddi ziyan dəyməsi;

5 gəminin saya oturması, yaxud hərəkət (üzgüçülük) imkanından məhrum olması və ya gəminin toqquşmada iştirakı;

.6 gəmidən kənarda olan dəniz infrastrukturu obyektlərinin, gəminin özünün, başqa gəminin və ya ayrıca şəxsin, yaxud dəniz üzgüçülüyünün təhlükəsizliyini ciddi təhdid edə biləcək maddi ziyan; yaxud

.7 gəminin və ya gəmilərin zədələnməsi nəticəsində ətraf mühitə ciddi zərər vurulması, yaxud ətraf mühitə ciddi potensial zərər vurulması. Halbuki, dəniz qəzasına gəminin təhlükəsizliyinə, ayrıca şəxsə, yaxud ətraf mühitə ziyan vurmaq niyyəti ilə qəsdən törədilən əməl (hərəkət), yaxud hərəkətsizlik (səhlənkarlıq) daxil deyil.

2.10 Dəniz hadisəsi (insidenti) dedikdə, gəminin istismarı ilə bilavasitə əlaqədar olaraq baş vermiş, gəmidəki şəxslərin və ya hər hansı başqa şəxsin, yaxud ətraf mühitin təhlükəsizliyini təhdid edən və ya qarşısı alınmadıqda təhdid edə biləcək, dəniz qəzası anlayışı ilə əhatə olmayan hadisə və ya ardıcıl hadisələr nəzərdə tutulur. Halbuki, dəniz hadisəsinə gəminin təhlükəsizliyinə, ayrıca şəxsə, yaxud ətraf mühitə ziyan vurmaq niyyəti ilə qəsdən törədilən əməl (hərəkət), yaxud hərəkətsizlik (səhlənkarlıq) daxil deyil.

2.11 Dəniz təhlükəsizliyi üzrə araşdırma dedikdə, gələcəkdə dəniz qəzalarının və dəniz hadisələrinin (insidentlərinin) qarşısını almaq məqsədilə həyata keçirilən dəniz qəzasına, yaxud dəniz hadisəsinə (insidentinə) dair araşdırma, yaxud sorğu (lakin dövlət tərəfindən göstərilən) nəzərdə tutulur. Araşdırmaya sübutların toplanması, səbəbiyyət amillərinin müəyyən olunması və təhlükəsizliklə (əmniyyətlə) bağlı tövsiyələrin edilməsi daxildir.

2.12 dəniz təhlükəsizliyi üzrə araşdırma aktı (hesabatı) dedikdə, aşağıdakıları özündə ehtiva edən hesabat (akt) nəzərdə tutulur:

.1 dəniz qəzasının, yaxud dəniz hadisəsinin (insidentinin) əsas faktlarını açıqlayan, bunun nəticəsində hər hansı ölüm, yaralanma, yaxud çirklənmə hadisəsinin olub-olmadığını göstərən yekun icmal;

.2 bayraq dövlətinin, mülkiyyətçilərin, operatorların eyniyyəti, əmniyyətin idarə edilməsi şəhadətnaməsində şirkət kimi müəyyən edilmiş şirkətin və təsnifat cəmiyyətinin eyniyyəti (məxfilik ilə bağlı hər hansı ölkə qanunvericiliyinə müvafiq olaraq);

.3 müvafiq olduqda, iştirak edən hər hansı gəminin ölçülərinin və mühərriklərinin təfərrüatları, ekipajın, iş rejiminin və digər məsələlərin təsviri (məsələn, gəmidə xidmət göstərdiyi vaxt);

.4 dəniz qəzasının, yaxud dəniz hadisəsinin (insidenti) baş vermə səbəbləri göstərilməklə izahat;

.5 səbəbiyyət amilləri, o cümlədən, hər hansı mexaniki, insani və təşkilati amillər haqqında təhlil və rəy;

.6 dəniz təhlükəsizliyi üzrə araşdırmadan əldə edilən faktların müzakirəsi, o cümlədən, təhlükəsizlik məsələləri və dəniz təhlükəsizliyi üzrə araşdırmanın nəticələrinin müəyyən edilməsi; və

.7 gələcəkdə dəniz qəzaları və dəniz hadisələrinin (insidentləri) qarşısının alınması məqsədilə tövsiyələr.

2.13 Dəniz təhlükəsizliyi üzrə araşdırma orqanı dedikdə, bu məcəlləyə uyğun olaraq araşdırmaların aparılmasına cavabdeh olan dövlət orqanı nəzərdə tutulur.

2.14 Dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) dedikdə bayraq dövləti, yaxud müvafiq olduqda, bu məcəlləyə uyğun olaraq dəniz təhlükəsizliyi üzrə araşdırmanın qarşılıqlı razılaşdırılmış formada aparılmasına cavabdehliyi öz üzərinə götürən, yaxud dövlətləri nəzərdə tutulur.

2.15 Dəniz təhlükəsizliyi (əmniyyəti) aktı dedikdə, dəniz təhlükəsizliyi üzrə araşdırma üçün toplanmış aşağıdakı akt növləri nəzərdə tutulur:

.1 dəniz təhlükəsizliyi üzrə araşdırmanın məqsəd üçün götürülmüş bütün izahatlar;

.2 gəminin istismarı ilə əlaqədar şəxslər arası bütün kommunikasiyalar;

.3 dəniz qəzasında, yaxud dəniz hadisəsində (insidenti) iştirak edən şəxslərlə əlaqədar bütün tibbi, yaxud şəxsi məlumatlar;

.4 dəniz təhlükəsizliyi üzrə araşdırmanın gedişi zamanı əldə edilən məlumatların, yaxud maddi sübutun təhlilinə dair bütün aktlar;

.5 səfər məlumatlarını qeyd edən cihazdan əldə edilən məlumatlar.

2.16 Dəniz qəzası ilə əlaqədar maddi ziyan dedikdə, aşağıdakılar nəzərdə tutulur:

.1 bu ziyan aşağıdakı kimidir:

.1.1 dəniz infrastrukturunun, yaxud gəminin struktur bütövlüyünə, işinə, yaxud istismar xassələrinə ciddi mənfi təsir göstərən; və

.1.2 əsas komponent və ya komponentlərin əsaslı təmirini və ya dəyişdirilməsini tələb edir; yaxud

.2 dəniz infrastrukturunun, yaxud gəminin məhvi.

2.17 Dənizçi dedikdə, gəmidə hər hansı vəzifəyə işə götürülmüş, yaxud işləyən və ya işləyən hər hansı şəxs nəzərdə tutulur.

2.18 Ağır yaralanma (bədən xəsarəti) dedikdə, 72 saatdan artıq müddətdə normal şəkildə hərəkət etmək iqtidarında olmayan, yaralanma hadisəsindən əziyyət çəkməyə başladığı tarixdən etibarən yeddi gün davam edən şəxsin zədələnməsi nəzərdə tutulur.

2.19 Ətraf mühitə ciddi ziyan dedikdə, zərər görmüş dövlət (dövlətlər) tərəfindən, yaxud bayraq dövləti tərəfindən qiymətləndirildiyi kimi, müvafiq olduqda, ətraf mühitə dəyən ağır ziyan nəzərdə tutulur.

2.20 Əhəmiyyətli dərəcədə maraqlı dövlət dedikdə, aşağıdakı dövlət nəzərdə tutulur:

.1 dəniz qəzasında, yaxud dəniz hadisəsində (insidenti) iştirak edən gəminin bayraq dövləti olan; yaxud

.2 dəniz qəzasında, yaxud dəniz hadisəsində (insidenti) iştirak edən sahilyanı dövlət olan; yaxud

.3 dəniz qəzası nəticəsində ətraf mühitlərinə (o cümlədən, beynəlxalq qanunvericilik əsasında tanınmış su mühitlərinə və ərazilərinə) ciddi, yaxud xeyli ziyan dəymiş; yaxud

.4 dəniz qəzasının, yaxud dəniz hadisəsinin (insidenti) ağır nəticəsinin dövlətə, yaxud süni adalara, yaxud qurğulara və ya yurisdiksiyasında olan strukturlara ciddi zərər vurulmasına səbəb olmuş, yaxud təhdid yaratmış,

.5 dəniz qəzasının nəticəsində həmin dövlətin vətəndaşları həyatlarını itirmiş, yaxud ağır xəsarətlər almış; yaxud

.6 dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlətin (dövlətlərin) araşdırma üçün səlahiyyətindəki vacib məlumatlara sahib olan; yaxud

.7 dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) tərəfindən mühüm hesab edilən digər başqa səbəbə görə maraq yaradan.

2.21 Ərazi suları dedikdə Birləşmiş Millətlər Təşkilatının dəniz hüququ haqqında konvensiyasının 2-ci hissəsinin 2-ci bölməsində müəyyən edilmiş ərazi suları nəzərdə tutulur.

2.22 Çox ağır dəniz qəzası dedikdə, gəminin tamamilə itirilməsi, yaxud ölüm hadisəsinin baş verməsi və yaxud ətraf mühitə ciddi ziyan vurulması nəzərdə tutulur.

## 3-cü fəsil

## II və III HİSSƏLƏRDƏKİ FƏSİLLƏRİN TƏTBİQİ

3.1 Bu məcəllənin II fəslində dəniz təhlükəsizliyi üzrə araşdırmalar üçün məcburi standartlar yer alıb. Tətbiq edilən bəzi maddələr dəniz qəzalarının yalnız müəyyən kateqoriyaları ilə əlaqədar tətbiq edilir və həmin dəniz qəzaları zamanı dəniz təhlükəsizliyi üzrə araşdırmalar üçün məcburi xarakter daşıyır.

3.2 Bu Məcəllənin III hissəsində yer almış maddələr yalnız müəyyən dəniz qəzaları üçün tətbiq edilən bu hissədə olan maddələrə istinad edir. III hissədə yer almış maddələrdə qeyd olunan maddələrin digər dəniz qəzaları, yaxud dəniz hadisələri (insidentləri) zamanı dəniz təhlükəsizliyi üzrə araşdırmalarda tətbiq edildiyi tövsiyə edilə bilər.

# II HİSSƏ

## MƏCBURİ STANDARTLAR

## DƏNİZ TƏHLÜKƏSİZLİYİ ÜZRƏ ARAŞDIRMA ORQANI

4.1 Hər bir dövlətin hökuməti Təşkilatı öz dövləti daxilində dəniz təhlükəsizliyi üzrə araşdırmalar aparan dəniz təhlükəsizliyi üzrə araşdırma orqanının (orqanları) müfəssəl əlaqə məlumatları ilə təmin etməlidir.

## 5-ci fəsil

## BİLDİRİŞ

5.1 Açıq dənizdə, yaxud müstəsna iqtisadi zonada dəniz qəzası baş verdiyi zaman gəminin bayraq dövləti, yaxud iştirak edən gəmilər digər əhəmiyyətli dərəcədə maraqlı dövlətləri praktiki cəhətdən mümkün qədər tez bir zamanda xəbərdar etməlidir.

5.2 Sahilyanı dövlətin ərazisində, o cümlədən, ərazi sularında dəniz qəzası baş verən zaman bayraq dövləti və sahilyanı dövlət bir-birini bu barədə xəbərdar etməli və praktiki cəhətdən mümkün qədər tez bir zamanda digər əhəmiyyətli dərəcədə maraqlı dövlətləri bu barədə xəbərdar etməlidir.

5.3 Bildiriş tam məlumatların çatışmazlığı səbəbindən yubanmalı deyil.

5.4 Forması və məzmunu:

Bildirişdə aşağıdakı məlumatların hazır vəziyyətdə olan mümkün qədər çox hissəsi yer almalıdır.

.1 gəminin adı və onun bayraq dövləti;

.2 gəminin BDT identifikasiya nömrəsi;

.3 dəniz qəzasının xarakteri;

.4 dəniz qəzasının baş verdiyi yer;

.5 dəniz qəzasının vaxtı və tarixi;

.6 hər hansı ağır yaralanmış, yaxud həlak olmuş şəxslərin sayı;

.7 dəniz qəzasının ayrı-ayrı şəxslərə, əmlaka və ətraf mühitə dəyən təsirləri; və

.8 iştirak edən hər hansı gəminin eyniyyəti.

## 6-cı fəsil

## ÇOX AĞIR DƏNİZ QƏZALARININ ARAŞDIRILMASI ÜÇÜN TƏLƏB

6-cı fəsil

6.1 hər bir çox ağır dəniz qəzasının dəniz təhlükəsizliyi üzrə araşdırması aparılmalıdır.

6.2 7-ci fəslə uyğun olaraq hər hansı müqavilə əsasında çox ağır dəniz qəzasında iştirak edən gəminin bayraq dövləti dəniz təhlükəsizliyi üzrə araşdırmanın bu məcəlləyə uyğun olaraq aparıldığını təmin etməyə cavabdehdir.

## 7-ci fəsil

## BAYRAQ DÖVLƏTİNİN DƏNİZ TƏHLÜKƏSİZLİYİ ÜZRƏ ARAŞDIRMANI APARMAQ ÜÇÜN DİGƏR ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ MARAQLI DÖVLƏT İLƏ RAZILAŞMA

7.1 Dövlətləri dəniz təhlükəsizliyi üzrə öz araşdırmalarını ayrıca şəkildə aparmaqlarına dair hüquqlarını məhdudlaşdırmadan, əgər dəniz qəzası bir dövlətin ərazisində, o cümlədən, ərazi sularında baş verərsə, dəniz qəzasında iştirak edən bayraq dövləti və sahilyanı dövlət razılıq əldə etmək üçün məsləhətləşmə aparır və bunun əsasında dövlət və ya dövlətlər bu məcəlləyə müvafiq olaraq araşdırma aparmaq üçün tələbə, yaxud hərəkət etdikləri tövsiyəyə uyğun olaraq dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) olur.

7.2 Dövlətləri dəniz təhlükəsizliyi üzrə öz araşdırmalarını ayrıca şəkildə aparmalarına dair hüquqlarını məhdudlaşdırmadan, əgər dəniz qəzası açıq dənizdə, yaxud bir dövlətin müstəsna iqtisadi zonasında baş verərsə və birdən artıq bayraq dövləti iştirak edərsə, o halda, dövlətlər bu məcəlləyə müvafiq olaraq araşdırma aparmaq üçün tələbə, yaxud hərəkət etdikləri tövsiyəyə uyğun olaraq dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) olur.

7.3 7.1, yaxud 7.2 saylı bənddə istinad edilən dəniz qəzası üzrə araşdırmanın aparılması üzrə razılığı dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) olan həmin dövlət, yaxud dövlətlər üçün digər əhəmiyyətli dərəcədə maraqlı dövlət olan müvafiq dövlətlər tərəfindən əldə etmək mümkündür.

7.4 7.1, 7.2, yaxud 7.3 saylı bəndə uyğun olaraq razılıq əldə etməzdən əvvəl, yaxud razılıq əldə etmək mümkün olmadıqda, o halda, bu məcəllə və beynəlxalq qanunlar əsasında dövlətlərin hüquq və öhdəlikləri öz araşdırmalarını aparmaq üçün müvafiq tərəflərin öz səlahiyyətlərində qalır.

7.5 Digər əhəmiyyətli dərəcədə maraqlı dövlət tərəfindən aparılmış dəniz təhlükəsizliyi üzrə araşdırmada tam şəkildə iştirak etməklə, bayraq dövləti bu məcəllə, SOLAS-ın I/21 saylı qaydası və Birləşmiş Millətlər Təşkilatının dəniz hüququ haqqında konvensiyasının 94-cü maddəsinin 7-ci bölməsi əsasında öz öhdəliklərini yerinə yetirmiş hesab edilir.

## 8-ci fəsil

## ARAŞDIRMA SƏLAHİYYƏTLƏRİ

8.1 Bütün ölkələr ölkə qanunlarının öz müfəttişinə (müfəttişlərinə) gəmiyə baxış keçirmək və kapitanla və ekipajla və iştirak edən hər hansı digər şəxslərlə müsahibə aparmaq və dəniz təhlükəsizliyi üzrə araşdırmanın məqsədləri üçün maddi sübut əldə etmək bacarığı ilə birgə sözügedən araşdırmanı aparmaq imkanı yaratdığını təmin etməlidir.

## 9-cu fəsil

## PARALEL ARAŞDIRMALAR

9.1 Əgər dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) bu məcəllə əsasında dəniz təhlükəsizliyi üzrə araşdırmanı apararsa, heç bir hal digər əhəmiyyətli dərəcədə maraqlı dövlətin öz ayrıca dəniz təhlükəsizliyi üzrə araşdırmasını aparmaq hüququnu məhdudlaşdırmır. Dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlətin (dövlətlərin) bu məcəllə əsasında öz öhdəliklərini yerinə yetirmək bacarığına malik olduğunu etiraf edərək, dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) və dəniz təhlükəsizliyi üzrə araşdırma aparan hər hansı digər əhəmiyyətli dərəcədə maraqlı dövlət mümkün olduğu yerdə sübutlara şahidlik etmək və sübutları əldə etmək üçün təzadlı tələblərdən uzaq durmaq üçün öz araşdırmalarının vaxt profilini əlaqələndirməlidir.

## 10-cu fəsil

## ƏMƏKDAŞLIQ

10.1 Bütün əhəmiyyətli dərəcədə maraqlı dövlətlər dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlətlə (dövlətlərlə) praktiki cəhətdən mümkün olan müddətədək əməkdaşlıq edir. Dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) praktiki cəhətdən mümkün olan müddətədək əhəmiyyətli dərəcədə maraqlı dövlətlərin iştirakını nəzərdə tutur*.

* “Praktiki cəhətdən mümkün olan müddətədək” anlayışının mənası belə götürülə bilər, məsələn, həmin əməkdaşlıq və ya iştirak məhdudlaşır, çünki, ölkə qanunları əməkdaşlıq və ya iştirakı praktiki cəhətdən mümkünsüz edə bilər.

## 11-ci fəsil

## DAXİLİ GÖSTƏRİŞDƏN ASILI OLMAYAN ARAŞDIRMA

11.1 Dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) müfəttiş (müfəttişlər) tərəfindən aparılan dəniz təhlükəsizliyi üzrə araşdırmanın qərəzsiz və obyektiv olduğuna təminat verməlidir. Dəniz təhlükəsizliyi üzrə araşdırmanın nəticəsinə təsir göstərə biləcək hər hansı şəxsin, yaxud təşkilatların göstərişi, yaxud müdaxiləsi olmadan sözügedən araşdırma haqqında hesabat verməк imkanına malik olmalıdır.

## 12-ci fəsil

## DƏNİZÇİLƏRDƏN SÜBUTLARIN ƏLDƏ EDİLMƏSİ

12.1 Əgər dəniz təhlükəsizliyi üzrə araşdırma zamanı dəniziçidən sübut əldə etmək tələb olunarsa, həmin sübut ilk fürsətdə, ən tez bir zamanda götürülməlidir. Dənizçiyə ən tez bir zamanda gəmiyə, yaxud ölkəsinə qayıtmağa icazə verilməlidir. Dənizçilərin insan hüquqlarına hər zaman hörmətlə yanaşılmalıdır.

12.2 Sübutların istənildiyi bütün dənizçilərə dəniz təhlükəsizliyi üzrə araşdırmanın xarakteri və əsasları barədə məlumat verilir. Bundan əlavə, sübutların istənildiyi dənizçiyə aşağıdakılar barədə məlumat verilir və hüquqi yardım almaq imkanı yaradılır:

.1 dəniz təhlükəsizliyi üzrə araşdırmanın ardınca hər hansı məhkəmə baxışında özlərini təqsirli hesab edəcək hər hansı potensial risk barədə;

.2 özünü təqsirli bilmək və ya susmaq hüququ;

.3 sübutun onların əleyhinə istifadəsinin qarşısını almaq üçün dənizçi üçün mühafizənin təmin edilməsi (əgər onlar dəniz təhlükəsizliyi üzrə araşdırmaya sübut təqdim edərlərsə).

## 13-cü fəsil

## DƏNIZ TƏHLÜKƏSIZLIYI ÜZRƏ ARAŞDIRMA AKTI(LAR)NIN (HESABAT(LAR)ININ) LAYİHƏSİ

13.1 13.2 və 13.3 saylı bəndlərə uyğun olaraq müraciət edildiyi yerdə dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) hesabat layihəsinə rəy vermək üçün sözügedən hesabatın bir nüsxəsini əhəmiyyətli dərəcədə maraqlı dövlətə göndərir.

13.2 Dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlətdən (dövlətlərdən) yalnız 13.1 saylı bəndin tələblərini aşağıdakı hallara zəmanət verdiyi təqdirdə yerinə yetirmək tələb olunur: dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlətin (dövlətlərin) xüsusi razılığı olmadan hesabatı alan əhəmiyyətli dərəcədə maraqlı dövlət onu yayımlamasın, yayımlanmasına səbəb olmasın, dərc etdirməsin, yaxud hesabatın layihəsinin hər hansı hissəsinə baxmaq imkanı yaratmasın; yaxud qeyd olunan hesabatlar, yaxud sənədlər dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) tərəfindən artıq dərc edilmiş olsun.

13.3 Dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlətdən (dövlətlərdən) yalnız 13.1 saylı bəndin tələblərini aşağıdakı hallara zəmanət verdiyi təqdirdə yerinə yetirməmək tələb olunur, əgər:

.1 dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) hesabatı alan əhəmiyyətli dərəcədə maraqlı dövlətdən hesabat layihəsinə daxil edilmiş sübutun mülki, yaxud cinayət mühakimə icraatında sübutu təqdim edən şəxsin əleyhinə iqrar edilməyəcəyini təsdiq etməsini xahiş edərsə; və

.2 əhəmiyyətli dərəcədə maraqlı dövlət qeyd olunan təsdiqi təmin etməkdən imtina edərsə.

13.4 Dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) əhəmiyyətli dərəcədə maraqlı dövlətləri 30 gün müddətində, yaxud qarşılıqlı razılaşdırılmış digər müddətdə layihə hesabatına rəy vermək imkanı verməlidir. Dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) yekun hesabatı hazırlamadan əvvəl rəyləri nəzərə alır və əgər rəylərin qəbul edilməsi və ya rəylərdən imtina edilməsi onları təqdim edən dövlətin maraqlarına birbaşa təsiri olarsa, o halda, dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) əhəmiyyətli dərəcədə maraqlı dövləti rəylərin ünvanlanma qaydası barədə xəbərdar edir. Əgər dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) 30 gündən, yaxud qarşılıqlı razılaşdırılmış digər müddətdən sonra heç bir rəy almazsa, onda, o, hesabatı yekunlaşdırma işini davam etdirə bilər.

13.5 Dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) hesabat layihəsinin düzgünlüyü və tamlığını ən praktiki vasitələrlə tam şəkildə təsdiq etmək imkanlarını araşdırmalıdır.

## 14-cü fəsil

## DƏNİZ TƏHLÜKƏSIZLİYİ ÜZRƏ ARAŞDIRMA AKTI(LAR)I (HESABAT(LAR)I)

14.1 Dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) dəniz təhlükəsizliyi üzrə araşdırma aktının (hesabatının) yekun variantını hər bir çox ağır dəniz qəzası üzrə dəniz təhlükəsizliyi üzrə araşdırmanı aparmaq üçün Təşkilata təqdim edir.

14.2 Əgər çox ağır dəniz qəzasından başqa, digər dəniz qəzasına, yaxud dəniz hadisəsinə (insidentinə) dair dəniz təhlükəsizliyi üzrə araşdırma aparılarsa və gələcəkdə dəniz qəzaları, yaxud dəniz hadisələrinin (insidentlərin) qarşısını almaq üçün, yaxud ağırlığını azaltmaq üçün məlumatların yer aldığı dəniz təhlükəsizliyi üzrə araşdırma aktı (hesabatı) tərtib edilərsə, sözügedən hesabatın (aktın) yekun variantı Təşkilata təqdim edilir.

14.3 14.1 və 14.2 saylı bəndlərdə istinad edilən dəniz təhlükəsizliyi üzrə araşdırma aktında (hesabatında) dəniz təhlükəsizliyi üzrə araşdırma zamanı əldə edilən məlumatlardan istifadə edilir və bu zaman onun zərurət yarandıqca təhlükəsizlik tədbirinin görülməsinə imkan yaratmaq məqsədilə müvafiq təhlükəsizlik məsələlərinin daxil edildiyini və başa düşüldüyünü tələb edən əhatə (tətbiq) dairəsi nəzərə alınır.

14.4 Dəniz təhlükəsizliyi üzrə araşdırmanın yekun aktı (hesabatı) dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) tərəfindən ictimaiyyət və gəmiçilik təşkilatları üçün təmin edilir, yaxud əgər sözügedən hesabat dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) tərəfindən dərc edilərsə, o halda, həmin hesabatın əldə edilməsi üçün zəruri olan təfərrüatlıların təmin edilməsinə köməklik göstərmək öhdəliyini dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) öz üzərinə götürür.

## III HİSSƏ

## TÖVSİYƏ EDİLƏN TƏCRÜBƏLƏR

### 15-ci fəsil

### İNZİBATI MƏSULİYYƏT

15.1 Bu məcəllə əsasında dövlətin dəniz qəzalarının və dəniz hadisələrinin (insidentlərinin) dəniz təhlükəsizliyi üzrə araşdırmalarını aparmaq öhdəliyinin asanlaşdırılmasına imkan yaratmaq üçün dəniz təhlükəsizliyi üzrə araşdırma aparan orqanlar onları yetərli material və maliyyə resursları və müvafiq ixtisaslar almış əməkdaşlarla təchiz edilməsini təmin etməlidir.

15.2 Dəniz təhlükəsizliyi üzrə araşdırmanın bir hissəsini təşkil edən hər hansı müfəttiş A.996(25) saylı qətnamədə müfəttişlər üçün qeyd olunan bacarıqlar əsasında təyin edilməlidir.

15.3 Halbuki, 15.2 saylı bənd dəniz təhlükəsizliyi üzrə araşdırmanın bir hissəsini təşkil etmək üçün zəruri mütəxəssis bacarıqlarına malik mütəxəssislərin müvəqqəti əsasla təyin edilməsinə mane olmur, yaxud dəniz təhlükəsizliyi üzrə araşdırmanın hər hansı cəhəti barədə ekspert məsləhətini təmin etmək üçün məsləhətçilərdən istifadə edilməsinə əngəl törətmir.

15.4 Dəniz təhlükəsizliyi üzrə araşdırmanın müfəttişi olan, yaxud dəniz təhlükəsizliyi üzrə araşdırmaya kömək edən hər hansı bir şəxs bu məcəlləyə uyğun olaraq onun hüdudları çərçivəsində fəaliyyət göstərməlidir.

## 16-cı fəsil

## ARAŞDIRMANIN PRİNSİPLƏRİ

16.1 Müstəqillik: sərbəst məlumat axınını təmin etmək üçün dəniz təhlükəsizliyi üzrə araşdırma qərəzsiz olmalıdır.

16.1.1 16.1 saylı bənddə göstərilən nəticəyə nail olmaq məqsədilə dəniz təhlükəsizliyi üzrə araşdırmanı aparan müfəttiş (müfəttişlər) aşağıdakılardan vəzifə cəhətdən asılı olmamalıdır:

.1 dəniz qəzasında, yaxud dəniz hadisəsində (insidenti) iştirak edən tərəflər;

.2 dəniz qəzasında, yaxud dəniz hadisəsində (insidenti) iştirak edən ayrıca şəxsə, yaxud təşkilata qarşı inzibati, yaxud intizam tədbiri görmək üçün qərar qəbul etmək imkanına malik hər hansı şəxs; və

.3 məhkəmə icraatı.

16.1.2 Dəniz təhlükəsizliyi üzrə araşdırmanı aparan müfəttiş (müfəttişlər) aşağıdakılarla əlaqədar 16.1.1 saylı bəndin .1, .2 və .3 saylı bəndində qeyd olunmuş tərəflərdən asılı olmamalıdır:

.1 dəniz qəzasına, yaxud dəniz hadisəsinə (insidentinə), o cümlədən, səfər məlumatlarını qeyd edən cihazlar və gəmi nəqliyyatı xidmətlərinin qeydlərinə müvafiq olan bütün məlumatların toplanması;

.2 sübutun təhlili və səbəbiyyət amillərinin müəyyən edilməsi;

.3 səbəbiyyət amillərindən müvafiq nəticələri çıxarmaq;

.4 yekun hesabatın müzakirəsi və hazırlanması üçün hesabat layihəsinin paylanması; və

.5 əgər uyğun olarsa, təhlükəsizlik haqqında tövsiyələrin verilməsi.

16.2 Təhlükəsizliyin məqsədi aşağıdakı kimidir:

Məsuliyyətin, yaxud təqsirkarın müəyyən edilməsi dəniz təhlükəsizliyi üzrə araşdırmanın məqsədi deyil. Halbuki, dəniz təhlükəsizliyi üzrə araşdırmanı aparan müfəttiş (müfəttişlər) dəniz qəzasına, yaxud dəniz hadisəsinə (insidentinə) dair əldə edilən faktların təqsirləndirmə ilə və ya məsuliyyətə cəlb olunma ilə nəticələnə biləcək səbəbiyyət amilləri haqqında tam şəkildə hesbat verməkdən çəkinməməlidir.

### 16.3 Əməkdaşlıq:

### Əməkdaşlıq:

Praktiki cəhətdən mümkün olarsa və bu məcəllənin, xüsusilə də 10-cu fəslin tələblərinə və tövsiyələrinə uyğun olarsa, dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) dəniz qəzasının, yaxud dəniz hadisəsinin (insidentinin) araşdırması aparan əhəmiyyətli dərəcədə maraqlı dövlətlərlə və digər şəxslərlə, yaxud təşkilatlarla əməkdaşlığı maksimum şəkildə asanlaşdırmalıdır.

16.4 Prioritet: Dəniz təhlükəsizliyi üzrə araşdırmaya, mümkün qədər, dəniz qəzası, yaxud dəniz hadisəsi (insidenti) üzrə aparılan cinayət araşdırması məqsədləri üçün dövlət tərəfindən aparılan hər hansı digər araşdırma kimi eyni üstünlük verilməlidir,

16.4.1 16.4 saylı bəndə uyğun olaraq, dəniz təhlükəsizliyi üzrə araşdırmanı aparan müfəttiş (müfəttişlər) digər şəxs, yaxud təşkilat tərəfindən dəniz qəzasının, yaxud dəniz hadisəsinin (insidentinin) ayrıca araşdırmasını apardığı hallarda sübutların əldə edilməsinə maneçilik törətməməlidir.

16.4.2 Hazır çıxışın təmin edildiyi sübutlara aşağıdakılar daxil edilməlidir:

.1 bayraq dövləti, mülkiyyətçilər və təsnifat cəmiyyətləri tərəfindən tərtib edilmiş sürveyer və digər aktları

.2 qeydə alınmış bütün məlumatlar, o cümlədən, səfər məlumatlarını qeyd edən cihazlar; və

.3 hökumət sürveyerləri, sahil mühafizəsi əməkdaşları, gəmi nəqliyyatı xidməti operatorları, losmanlar, yaxud digər gəmi personalı tərəfindən təqdim edilə biləcək sübut.

16.5 Dəniz təhlükəsizliyi üzrə araşdırmanın əhatə (tətbiq) dairəsi: Səbəbiyyət amillərinin tam uyğun şəkildə müəyyən olunması vaxtında və metodoloji araşdırmanı, birbaşa sübutlardan daha da uzağa getmək və dəniz qəzasının, yaxud dəniz hadisəsinin (insidentinin) baş verdiyi məkandan uzaqda ola bilən və gələcəkdə digər dəniz qəzalarına və dəniz hadisələrinin (insidentlərin) baş verməsi ilə nəticələnə biləcək səbəb yaradan şəraitlərin axtarışını tələb edir. Dəniz təhlükəsizliyi üzrə araşdırmalara buna görə də yalnız birbaşa səbəbiyyət amillərinin araşdırılması kimi deyil, həm də bütöv cavabdehlik zəncirində iştirak edə (mövcud ola) biləcək qüsurların (uğursuzluqların) müəyyən edilməsi üçün vasitələr kimi baxılmalıdır.

## 17 fəsil

## DƏNIZ QƏZALARININ ARAŞDIRILMASI

## (ÇOX AĞIR QƏZALARDAN BAŞQA) və DƏNİZ HADİSƏLƏRİ (İNSİDENTLƏRİ)

17.1 Əgər dəniz təhlükəsizliyi üzrə araşdırmanın gələcəkdə dəniz qəzalarının və dəniz hadisələrinin (insidentlərin) qarşısını almaq üçün istifadə edilə biləcək məlumatlarla təmin etmək iqtidarında olduğu güman edilərsə, iştirak edən gəminin bayraq dövləti tərəfindən dəniz qəzaları (çox ağır dəniz qəzalarından başqa – bu barədə bu məcəllənin 16-cı fəslində məlumat verilir) və dəniz hadisələri (insidentləri) üzrə dəniz təhlükəsizliyi üzrə araşdırması aparılmalıdır.

17.2 7 fəsildə dəniz qəzasına dair dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövləti (dövlətləri) müəyyən etmək üçün məcburi tələblər yer alıb. Əgər bu fəslə uyğun olaraq araşdırılan hadisə dəniz hadisələrinə (insidentlərinə) aid edildiyi üçün dəniz hadisəsindən (insidentindən) ibarət olarsa, 7-ci fəsil tövsiyə edilən təcrübə kimi izlənməlidir.

## 18-ci fəsil

## II HİSSƏNİN 7-Cİ FƏSLİ ƏSASINDA RAZILAŞMA ƏLDƏ ETMƏK ÜÇÜN NƏZƏRƏ ALINMALI AMİLLƏR

8.1 Bayraq dövləti (dövlətləri), sahilyanı dövlət (əgər iştirak edilərsə), yaxud digər əhəmiyyətli dərəcədə maraqlı dövlətlər II hissənin 7-ci fəslinə uyğun olaraq (bunun əsasında dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər), yaxud Dövlət (dövlətlər) olarsa) razılıq əldə etmək imkanları axtararsa, bu məcəllə əsasında aşağıdakı amillər nəzərə alınmalıdır:

.1 əgər dəniz qəzası, yaxud dəniz hadisəsi (insidenti) bir dövlətin ərazisində, o cümlədən, ərazi sularında baş verərsə;

.2 açıq dənizdə, yaxud müstəsna iqtisadi zonada baş verən dəniz qəzasında, yaxud dəniz hadisəsində (insidenti) iştirak edən gəmi, yaxud gəmilər sonradan dövlətin ərazi sularına doğru üzərsə;

.3 bayraq dövləti və digər əhəmiyyətli dərəcədə maraqlı dövlətlər tərəfindən resurslar və öhdəlik tələb edilərsə;

.4 dəniz təhlükəsizliyi üzrə araşdırmanın mümkün tətbiq (əhatə) dairəsi və bayraq dövlətinin, yaxud digər əhəmiyyətli dərəcədə maraqlı dövlətin həmin tətbiq (əhatə) dairəsini yerləşdirmək bacarığı;

.5 dəniz təhlükəsizliyi üzrə araşdırmanı aparan müfəttişin (müfəttişlərin) sübutları əldə edə bilmək imkanı və dövlətin, yaxud dövlətlərin həmin imkanları asanlaşdırmaq üçün ən yaxşı formada yerləşdiyini nəzərə almaq zərurəti;

.6 dəniz qəzasının, yaxud dəniz hadisəsinin (insidentinin) digər dövlətlərdə qavranmış, yaxud faktiki baş vermiş mənfi təsirləri;

.7 dəniz qəzası, yaxud dəniz hadisəsinin (insidentinin) zərər vurduğu ekipajın, sərnişinlərin və digər şəxslərin milli mənsubiyyətləri.

## 19-cu fəsil

## QANUNSUZ MÜDAXİLƏ ƏMƏLLƏRİ

19.1 Əgər dəniz təhlükəsizliyi üzrə araşdırmanın gedişində Dəniz gəmiçiliyinin təhlükəsizliyinə qarşı yönəlmiş qeyri-qanuni aktlarla mübarizə haqqında 1988-ci il tarixli Konvensiyanın 3-cü maddəsi, 3bis, 3ter, yaxud 3quarter əsasında cinayət əməli törədildiyi məlum olarsa, yaxud bu barədə şübhə yaranarsa, o halda, dəniz təhlükəsizliyi üzrə araşdırma orqanı dərhal aidiyyəti olan Dövlətin (dövlətlərin) dəniz təhlükəsizlik orqanlarına məlumat verməlidir.

## 20-ci fəsil

## İŞTİRAK EDƏN TƏRƏFLƏRƏ BİLDİRİŞ və ARAŞDIRMANIN BAŞLADILMASI

20.1 Bu məcəllə əsasında dəniz təhlükəsizliyi üzrə araşdırma başlandığı zaman, dəniz qəzasında, yaxud dəniz hadisəsində (insidenti) iştirak edən, araşdırılan gəminin kapitanı, mülkiyyətçisi və müvəkkili praktiki cəhətdən mümkün olduğu qədər aşağıdakılar barədə məlumatlandırılmalıdır:

.1 araşdırma altında olan dəniz qəzası, yaxud dəniz hadisəsi (insidenti);

.2 dəniz təhlükəsizliyi üzrə araşdırmanın başlanacağı zaman və məkan;

.3 dəniz təhlükəsizliyi üzrə araşdırma orqanının (orqanlarının) adı və əlaqə məlumatları;

.4 dəniz təhlükəsizliyi üzrə araşdırmanın aparıldığı qanunvericiliyin müvafiq təfərrüatları;

.5 dəniz təhlükəsizliyi üzrə araşdırmaya cəlb edilmiş tərəflərin hüquq və öhdəlikləri; və

.6 dəniz təhlükəsizliyi üzrə araşdırmanı aparan dövlətin, yaxud dövlətlərin hüquq və öhdəlikləri.

20.2 Hər bir dövlət gəminin kapitanına, müvəkkilinə və mülkiyyətçisinə elektron formada ötürülməsi mümkün olan, 20.1 saylı bənddə yer alan məlumatları əks etdirən standart sənəd işləyib hazırlamalıdır.

20.3 Dəniz qəzasında, yaxud dəniz hadisəsində (insidentində) iştirak edən hər hansı gəminin istismarının davam etdirilməsi imkanını və gəminin mütləq zərurətdən çox müddətdə yubadılmasının lazımsız olduğunu qeyd edərək dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) praktiki cəhətdən mümkün qədər tez bir zamanda, gəmini lazımsız yerə yubatmadan dəniz təhlükəsizliyi üzrə araşdırmanı başlatmalıdır.

## 21-ci fəsil

## ARAŞDIRMANIN ƏLAQƏLƏNDİRİLMƏSİ

21.1 Bu fəsildəki tövsiyələr bu Məcəllənin 10-cu və 11-ci fəsillərinin prinsiplərə uyğun olaraq tətbiq edilməlidir.
21.2 Dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) aşağıdakılar üçün dövlət daxilində uyğun çərçivənin olduğunu təmin etməlidir:

.1 dəniz təhlükəsizliyi üzrə araşdırmaya müfəttişlərin təyin edilməsi, o cümlədən, müfəttişin dəniz təhlükəsizliyi üzrə araşdırmaya rəhbər təyin edilməsi;

.2 dəniz təhlükəsizliyi üzrə araşdırmanın üzvlərinə məqsədəuyğun səviyyədə dəstəyin verilməsi;

.3 digər əhəmiyyətli dərəcədə maraqlı dövlətlərlə birgə dəniz təhlükəsizliyi üzrə araşdırma üçün strategiyanın işlənib hazırlanması;

.4 dəniz təhlükəsizliyi üzrə araşdırma zamanı əməl edilən metodologiyanın A.884(21) saylı qətnamədə (müvafiq dəyişikliklərlə) verilmiş tövsiyələrə uyğun olduğunu təmin etmək;

.5 dəniz təhlükəsizliyi üzrə araşdırma tərəfindən dəniz təhlükəsizliyi üzrə araşdırmanı aparan təşkilatın, yaxud Beynəlxalq Əmək Təşkilatının nəşr etdirdiyi hər hansı tövsiyələrin nəzərə alındığını təmin etmək; və

.6 dəniz təhlükəsizliyi üzrə araşdırma tərəfindən İSM məcəlləsi ilə əlaqədar gəminin operatoru üçün əmniyyətin idarə edilməsi qaydalarının və təhlükəsizlik siyasətinin nəzərə alındığını təmin etmək; və

21.3 Dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) əhəmiyyətli dərəcədə maraqlı dövlətə praktiki cəhətdən mümkün olan müddətədək dəniz təhlükəsizliyi üzrə araşdırmanın hər bir cəhətində iştirak etməyə imkan yaratmalıdır.

21.3.1 İştiraka həm də əhəmiyyətli dərəcədə maraqlı dövlətin nümayəndələrini aşağıdakı məqsədlər üçün imkan yaradılması daxildir:

.1 şahidlərin dindirilməsi;

.2 sübuta baxış və yoxlanış və sənədlərin nüsxələrinin hazırlanması;

.3 sübutla əlaqədar olaraq materialların verilməsi, rəy verilməsi və fikirlərinin uyğun şəkildə yekun hesabatda əks etdirilməsi; və

.4 dəniz təhlükəsizliyi üzrə araşdırma ilə əlaqədar hesabat layihələrinin və yekun hesabatların təqdim edilməsi*.

* "Praktiki cəhətdən mümkün olan müddətədək" anlayışının mənası belə götürülə bilər, məsələn, həmin əməkdaşlıq və ya iştirak məhdudlaşır, çünki, ölkə qanunları əməkdaşlıq və ya iştirakı praktiki cəhətdən mümkünsüz edə bilər.

21.4 Praktiki cəhətdən mümkün olan müddətədək, dəniz təhlükəsizliyi üzrə araşdırmanı aparan müfəttişin (müfəttişlərin) əhəmiyyətli dərəcədə maraqlı dövlətin hökumət sürveyerlərinə, sahil mühafizəsi əməkdaşlarına, gəmi nəqliyyatı xidməti operatorlarına, losmanlara, yaxud digər gəmi personalına çıxışı təmin edilməlidir.

21.5 Dəniz qəzasında, yaxud dəniz hadisəsində (insidenti) iştirak edən gəminin bayraq dövləti dəniz təhlükəsizliyi üzrə araşdırmanı aparan müfəttiş (müfəttişlər) üçün ekipajın iştirakının asanlaşdırılmasına kömək etməlidir.

## 22-ci fəsil

## SÜBUTLARIN TOPLANMASI

22.1 Sübut toplamaq üçün gəmini lazımsız yerə saxlamalı deyil, yaxud lazım olmadığı müddətdə sənədlərinin əslini əldə etməməli, yaxud avadanlığı yerindən çıxarmamalıdır (əgər bu, dəniz təhlükəsizliyi üzrə araşdırmanın məqsədləri üçün

mühüm əhəmiyyət kəsb etməzsə). Müfəttişlər praktiki cəhətdən mümkün olduğu yerdə müfəttişlər sənədlərin nüsxələrini çıxarmalıdır.

22.2 Dəniz təhlükəsizliyi üzrə araşdırmanı aparan müfəttiş (müfəttişlər) dəniz təhlükəsizliyi üzrə araşdırma zamanı müsahibələrin (dindirmələrin) və toplanmış digər sübutların araşdırma məqsədi üçün onları tələb etməyən şəxslər tərəfindən əldə edilməsinin qarşısını alan bir tərzdə protokollarını tərtib etməlidir (uçotunu aparmalıdır).

22.3 Dəniz təhlükəsizliyi üzrə araşdırmanı aparan müfəttiş (müfəttişlər) qeydə alınmış bütün məlumatların, o cümlədən, səfər məlumatlarını qeyd edən cihazlardan (əgər təchiz olunarsa) əldə edilən məlumatların effektiv istifadəsini təşkil etməlidir. Səfər məlumatlarını qeyd edən cihazlardakı məlumatların dəniz təhlükəsizliyi üzrə araşdırmanı aparan müfəttiş (müfəttişlər), yaxud təyin edilmiş digər nümayəndə tərəfindən yüklənməsi üçün əlçatan olmalıdır.

22.3.1 Dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) səfər məlumatlarını qeyd edən cihazı oxumaq üçün uyğun obyektlərə malik olmadığı halda qeyd olunan potensial imkanlara malik dövlətlər aşağıdakı məsələlərə lazımi diqqət verməklə öz xidmətlərini təklif etməlidir:

.1 mövcud resurslar;

.2 oxuma obyektinin imkanlarını;

.3 oxumanın operativliyi; və

.4 obyektin yerləşməsi.

## 23-cü fəsil

## MƏLUMATLARIN MƏXFİLİYİ

23.1 Dövlətlər, dəniz təhlükəsizliyi üzrə araşdırmanı aparan müfəttişin (müfəttişlərin) yalnız dəniz təhlükəsizliyi (əmniyyəti) aktından əldə edilən məlumatları aşağıdakı hallarda açıqladıqlarını təmin etməlidir:

.1 Nəqliyyatın təhlükəsizliyi məqsədləri üçün belə etmək zəruri olarsa, yaxud arzu edilən olarsa və dəniz təhlükəsizliyi üzrə araşdırmaya dair təhlükəsizlik məlumatlarının gələcəkdə əldə edilməsinə hər hansı təsiri nəzərə alındıqda; yaxud

.2 əks halda, bu məcəlləyə uyğun olaraq icazə verildikdə*.

* Dövlətlər dəniz təhlükəsizliyi (əmniyyəti) aktından alınan məlumatların dəniz təhlükəsizliyi üzrə araşdırmanı aparmaq məqsədilə dəniz təhlükəsizliyi üzrə araşdırmadan kənar şəxslərdən məxfi saxlanılmasının hüquqi qiymətləndirməsinin olduğunu etiraf edir. Belə ki, dəniz təhlükəsizliyi (əmniyyəti) aktından alınan məlumatlar kənar mütəxəssisə təhlil, yaxud ikinci rəy məqsədilə təqdim

edilməlidir. Məxfilik - dəniz təhlükəsizliyi üzrə araşdırmadan başqa, digər məqsədlər üçün dəniz qəzası, yaxud dəniz hadisəsi (insidenti) zamanı məxfi (həssas) məlumatların yardımçı amillərini müəyyən etmək mümkün olmadıqda, həmin məlumatların yersiz şəkildə açıqlanmayacağına nail olmaq (açıqlanmayacağını təmin etmək) deməkdir. Yersiz açıqlama vermək dəniz qəzasında, yaxud dəniz hadisəsində (insidentində) iştirak edən tərəflərin təqsirli bilməsinə, yaxud məsuliyyətə cəlb edilməsinə səbəb ola bilər.

23.2 Bu Məcəllə əsasında dəniz təhlükəsizliyi üzrə araşdırmada iştirak edən dövlətlər təminat verməlidir ki, sərəncamlarında olan hər hansı dəniz təhlükəsizliyi (əmniyyəti) aktı aşağıdakı hallar olmazsa, cinayət, mülki, inzibati tənbeh, yaxud inzibati icraat zamanı açıqlanmayacaq:

.1 Dəniz təhlükəsizliyi üzrə cari və gələcək araşdırmalarında ictimai maraqların ədalət mühakiməsində üstünlük təşkil etdiyi zaman dövlətin ədalət mühakiməsi üzrə müvafiq hakimiyyət orqanı sözügedən məlumatların açıqlanması nəticəsində hər hansı ölkə daxili, yaxud beynəlxalq miqyasda mənfi təsirinin baş verdiyini müəyyən edərsə; və*

* Cinayət, mülki, inzibati tənbeh, yaxud inzibati icraat zamanı dəniz təhlükəsizliyi (əmniyyəti) aktından əldə edilən məlumatların açıqlanmasının uyğun hesab edildiyi halların nümunələrinə aşağıdakılar aid edilə bilər:

1 əgər icraatın predmeti olan şəxs dağıdıcı nəticə yaratmaq niyyəti ilə hərəkət edərsə; yaxud

2 əgər icraatın predmeti olan şəxs dağıdıcı nəticənin baş verməsindən ibarət olan əhəmiyyətli riskdən xəbərdar olmadıqda və ona məlum olan hallara lazımi diqqət vermədikdə, yaxud riski öz üzərinə götürmək ədalətsiz hesab edildikdə.

.2 əgər uyğun olarsa, dəniz təhlükəsizliyi (əmniyyəti) aktı dəniz təhlükəsizliyi üzrə araşdırma üçün təqdim edən dövlət onun açıqlanmasına icazə verir.

23.3 Dəniz qəzasının, yaxud dəniz hadisəsinin (insidentinin) təhlilinə uyğun olduğu zaman dəniz təhlükəsizliyi (əmniyyəti) aktları, yaxud onun əlavələri yekun hesabata (akta) daxil edilməlidir. Yekun hesabata uyğun gəlməyən və daxil edilməyən hissələr açıqlanmamalıdır.

23.4 Məlumatı təqdim edən dövlət, yaxud dövlətlər tərəfindən dəniz təhlükəsizliyi üzrə araşdırılan hər hansı araşdırmanın bütövlüyünə və müqəddəratına xələl gətirmədiyi təqdirdə dövlətlər dəniz təhlükəsizliyi (əmniyyəti) aktından olan məlumatları əhəmiyyətli dərəcədə maraqlı dövlətə verməlidir.

23.4.1 Dəniz təhlükəsizliyi (əmniyyəti) aktından olan məlumatları verən dövlət bu məlumatları alan dövlətdən onları məxfi saxlamağını tələb edə bilər.

**24-cü fəsil**

## ŞAHİDLƏRİN VƏ İŞTİRAK EDƏN (CƏLB OLUNAN) TƏRƏFLƏRİN MÜHAFİZƏSİ

24.1 Əgər bir şəxsdən dəniz təhlükəsizliyi üzrə araşdırma məqsədilə onu qanunla təqsirli hesab edəcək sübutu təqdim etmək tələb olunarsa, həmin sübut ölkə qanunvericiliyinin icazəsi əsasında olmalı və şəxsə qarşı mülki, yaxud cinayət mühakimə icraatında sübut qismində çıxış edilməsinin qarşı alınmalıdır.
24.2 Sübutların istənildiyi şəxs dəniz təhlükəsizliyi üzrə araşdırmanın xarakteri və əsasları barədə məlumat verilməlidir. Sübutların istənildiyi şəxsə aşağıdakılar barədə məlumat verilir və hüquqi yardım almaq imkanı yaradılır:

.1 dəniz təhlükəsizliyi üzrə araşdırmanın ardınca hər hansı məhkəmə baxışında özlərini təqsirli hesab edəcək hər hansı potensial risk barədə;

.2 özünü təqsirli bilmək və ya susmaq hüququ;

.3 sübutun onların əleyhinə istifadəsinin qarşısını almaq üçün dənizçi üçün mühafizənin təmin edilməsi (əgər onlar dəniz təhlükəsizliyi üzrə araşdırmaya sübut təqdim edərlərsə).

## 25-ci fəsil

## HESABAT LAYİHƏSİ və YEKUN HESABAT

25.1 Dəniz təhlükəsizliyi üzrə araşdırmanın nəticəsi olan dəniz təhlükəsizliyi üzrə araşdırma akt(lar)ı (hesabat(lar)ı) praktiki cəhətdən mümkün qədər tez bir zamanda tərtib edilib başa çatdırılmalıdır.

25.2 Əgər istənilərsə və praktiki cəhətdən mümkün olarsa, dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) dəniz təhlükəsizliyi üzrə araşdırma aktının (hesabatının) bir nüsxəsini rəy almaq üçün maraqlı tərəflərə göndərməlidir. Halbuki, bu tövsiyəni yalnız aşağıdakı hallara zəmanət verdiyi təqdirdə yerinə yetirmək tələb olunur: dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlətin (dövlətlərin) xüsusi razılığı olmadan maraqlı tərəf onu yayımlamasın, yayımlanmasına səbəb olmasın, dərc etdirməsin, yaxud onun hər hansı hissəsinə baxmaq imkanı yaratmasın.

25.3 Dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) maraqlı tərəfə 30 gün müddətində, yaxud qarşılıqlı razılaşdırılmış digər müddətdə layihə hesabatına rəy vermək imkanı verməlidir. Dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) yekun hesabatı hazırlamadan əvvəl rəyləri nəzərə alır və əgər rəylərin qəbul edilməsi və ya rəylərdən imtina edilməsi onları təqdim edən maraqlı tərəfin maraqlarına birbaşa təsiri olarsa, o halda, dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) maraqlı tərəfə rəylərin ünvanlanma qaydası barədə xəbərdar edir. Əgər dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) 30 gündən, yaxud qarşılıqlı razılaşdırılmış digər müddətdən sonra heç bir rəy almazsa, onda, o, hesabatı yekunlaşdırma işini davam etdirə bilər.

* Müraciət əsasında maraqlı tərəflərə hesabatların təqdim edilməsi ilə əlaqədar məcburi müddəa qismində alternativ şəkildə daxil edilə biləcək müddəalara baxın.

25.4 Dəniz təhlükəsizliyi üzrə araşdırma aktını (hesabatını) hazırlayan dövlətin ölkə qanunları icazə verərsə, hesabatın layihəsi və yekun hesabat dəniz qəzası, yaxud dəniz hadisəsi (insidenti) ilə əlaqədar intizam tədbirlərinin, cinayət mühakimə icraatının, yaxud mülki məsuliyyət üzrə həbs qətimkan tədbirinin seçilməsinə gətirib çıxara bilən dəniz qəzası, yaxud dəniz hadisəsi (insidenti) ilə əlaqədar məhkəmə baxışına təqdim edilməsinin qarşısı alınmalıdır.

25.5 Dəniz təhlükəsizliyi üzrə araşdırmanın hər hansı mərhələsində müvəqqəti təhlükəsizlik tədbirləri tövsiyə edilməlidir.

25.6 Əgər əhəmiyyətli dərəcədə maraqlı dövlət dəniz təhlükəsizliyi üzrə araşdırmanın yekun aktı (hesabatı) ilə tamamilə, yaxud onun bir hissəsi ilə razılaşmazsa, o, təşkilata öz hesabatını təqdim edə bilər.

## 26-cı fəsil

## ARAŞDIRMANIN TƏKRAR BAŞLADILMASI

26.1 Dəniz təhlükəsizliyi üzrə araşdırmanı aparmış dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlət (dövlətlər) əldə etdikləri faktları (sübutları) təkrar nəzərə almalı və araşdırmaya təkrar başlamalıdlır (əgər əldə edilmiş təhlilləri və nəticələri kökündən dəyişə biləcək yeni sübutlar təqdim edilərsə).

26.2 Dəniz təhlükəsizliyi üzrə araşdırmanı aparmış dəniz təhlükəsizliyi üzrə araşdırma aparan dövlətə (dövlətlərə) hər hansı dəniz qəzası, yaxud dəniz hadisəsi (insidenti) ilə əlaqədar əhəmiyyətli dərəcədə yeni sübutlar təqdim edilərsə, həmin sübutlar tam şəkildə qiymətləndirilməli və uyğun tövsiyə məqsədilə digər əhəmiyyətli dərəcədə maraqlı dövlətlərin diqqətinə çatdırılmalıdır.